

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 mart 2022-ci il №22 (2633) https://mod.gov.az Qiyməti 30 qəpik

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı və səadət arzulayıram.

Azərbaycan torpağında qədim köklərə malik Novruz bayramı xalqımızın mədəni sərvətlər xəzinəsində layiqli yer tutur. Ulu əcdadımızın zəngin daxili aləminin və nikbin dünyagörüşünün dolğun təcəssümü olan bu el bayramı yüzillərdən bəri varlığımızın ən dərin qatlarına nüfuz etmiş, milli özünüdərkin təşəkkülünə töhfələr vermiş, ali dəyərlərin daşıyıcısına çevrilərək insanlarımızı vahid mənəviyyat ətrafında daim bir-birinə yaxınlaşdırmışdır.

Tariximizin taleyüklü anlarında gələcəyə inamımızı biz, eyni zamanda, Bahar bayramının bəxş etdiyi mənəvi güc sayəsində qoruyub saxlamışıq. Qloballaşma dalğasının vüsətli dövründə Novruz ənənələrinin müqəddəs ərməğan kimi uca tutulması və bütün rəngarəngliyi ilə yaşadılması çoxəsrlik mədəni irsimizə ehtiramımızın ifadəsidir.

Məhz parlaq Zəfərimizin qat-qat gücləndirdiyi xoş bahar ovqatı içində, artıq ikinci ildir ki, azadlığına qovuşmuş torpaqlarımızda hazırda yüksək sürətlə genişmiqyaslı bərpa və quruculuq işləri aparılmaqdadır. Yaz ətirli bayramımız bizi daha şövqlə çalışıb indi rahat nəfəs alan bu doğma yurd yerlərini qısa müddətdə abadlaşdırmağa və öz əvvəlki dinc həyatına qaytarmağa ruhlandırır.

Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş igid övladlarımızın xatirəsini bu bayram günlərində minnətdarlıqla yad edir, ölkənin müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə təbriklərimi yetirirəm.

Əminəm ki, xaricdəki soydaşlarımızın bizimlə birgə azərbaycançılıq məfkurəsi işığında baharı qarşılamaları onların qəlbində yurdumuza bağlılıq hisslərini daha da möhkəmləndirəcəkdir.

İrəlidə bizi ümumxalq əhəmiyyətli mühüm vəzifələrin həlli gözləyir. İnanıram ki, hər birimiz yaz fəslinin yeniləşdirici ab-havası ilə həmahəng ruh yüksəkliyi və həmrəylik şəraitində qurub-yaratmaq əzmi nümayiş etdirəcək, Qarabağa böyük qayıdış planımızı uğurla gerçəkləşdirəcəyik.

Hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm. Qoy bu əziz bayram hər evə, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq gətirsin!

Novruz bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 mart 2022-ci il

## Müzəffər ordumuz qürurumuzdur

Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm Qələbə təkcə Qafqaz regionunda deyil, bütün dünyada böyük əks-səda doğurdu. Aparılan döyüşlər 2020-ci il noyabrın 10-da Azərbaycanın şanlı Qələbəsi, Ermənistan ordusunun tam məğlubiyyəti, kapitulyasiyası ilə yekunlaşdı. 44 gün davam edən Vətən müharibəsi bütün dünyaya Azərbaycan dövlətinin qüdrətini, ordumuzun nəyə qadir olduğunu nümayiş etdirdi. Rəsmi İrəvanın öz ordusu barədə yaratdığı "məğlubedilməzlik" təsəvvürü yerlə-yeksan edildi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Azad Respublikaçılar Partiyasının sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru Kamil Seyidov söyləyib.

Partiya sədri bildirib ki, bu gün ordumuz dünyanın ən güclülərindən biridir. Bu, hər bir soydaşımızda qürur doğurur. Vətən müharibəsi zamanı da bunun şahidi olduq. Qazanılan parlaq Qələbə hər bir soydaşımızda qürur doğurur. Əlbəttə, bu, hərbi sahədə aparılan uğurlu islahatların nəticəsində mümkün olub. İlham Əliyev prezident seçiləndən sonra ölkənin hərbi baxımdan güclənməsi və regionda ən güclü silahlı qüvvəyə malik olması vəzifəsini qarşıya qoydu. Bu müddət ərzində ölkəmizin hərbi xərcləri 24 dəfə artıb. Dövlətimizin başçısı proqram xarakterli çıxışlarında bəyan etdi ki, Azərbaycanın qarşısında hərbi büdcəni artıraraq Ermənistanın ümumi dövlət büdcəsini keçmək vəzifəsi dayanır. 2004-cü ildən etibarən ölkəmiz öz hərbi xərclərini bu vəzifəyə uyğun olaraq hər il artıraraq Prezident İlham Əliyevin müəyyən etdiyi hədəfə çatdı və onu keçdi.

K.Seyidov deyib ki, ölkənin döyüş hazırlıqlı, modern silahlar və döyüş vasitələri ilə təchiz olunmuş Silahlı Qüvvələrinin yaradılması, saxlanması böyük həcmdə vəsait tələb etdiyi üçün bu hədəfə Azərbaycanın sürətli iqtisadi inkişafı sayəsində çatmaq mümkün oldu. 2006-cı ildə Azərbaycan hərbi xərclərdə daha böyük artım etdi, bu məqsədlə dövlət büdcəsindən 750 milyon ABŞ dolları ayrıldı. 2007-ci ildə isə hərbi xərclər 1 milyard dollara yaxınlaşdı. Nəhayət, 2010-cu ildə bu xərclər 2 milyard 150 milyon dollara çataraq Ermənistanın ümumi dövlət büdcəsinin xərclərini ötdü. Bu, Ermənistan üçün psixoloji baryerin keçilməsi idi və Azərbaycan ərazilərini işğal altında saxlayan tərəf onunla hərbi potensial baxımından rəqabətə girməyin qeyri-mümkünlüyünü anladı.

Azərbaycan hərbi xərclərinin artımını bununla dayandırmadı və ildən-ilə daha da artırdı. 2022-ci ilin dövlət büdcəsindən hərbi və təhlükəsizlik sahəsinə ayrılan vəsaitin məbləği rekord həddə çatıb: 4 milyard 489 milyon 892 min 429 manat.

K.Seyidov diqqətə çatdırıb ki, ölkəmizdə 1300-dən çox adda hərbi təyinatlı silah-sursatın istehsal olunması dövlətimizin başçısının ordu quruculuğuna verdiyi xüsusi önəmin bariz nümunəsidir. Müharibə aparan ölkə üçün bunun çox önəmli olduğunu bildirən partiya sədri deyib: "Söz yox ki, rəşadətli ordumuz Ermənistanın 30 illik işğalına son qoydu və düşməni diz çökdürdü. Düşmən məkrli və hiyləgərdir. Ona görə də dövlətimizin başçısı qeyd etdiyi kimi, biz ehtiyatımızı əldən verməməli, ordu quruculuğu daim inkişaf etdirməli və hər an hazır olmalıyıq. Elə bunun nəticəsidir ki, bu gün torpaqlarımızın hər qarışını qorumağa qadir olan ordumuz var. Təbii ki, bu uğurları yalnız güclü iqtisadiyyata malik olan dövlətlər qazana bilər. Azərbaycan da məhz belə dövlətlərdəndir".

K.Seyidov vurğulayıb ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü daxili və xarici siyasəti nəticəsində Azərbaycanın dinamik iqtisadi inkişafı, torpaqlarımızın işğaldan azad edilməsi və dünya dövlətlərinin ədaləti dəstəkləməsi, işğalçının ifşa olunması istiqamətində işlər uğurla davam etdirildi. Bunlarla bərabər, Silahlı Qüvvələrimizin gücləndirilməsi, ordumuzun döyüş qabiliyyətinin daha da yüksəldilməsi, müasir döyüş texnikaları ilə, silah-sursatla təchizatı daim diqqət mərkəzində saxlanıldı. Bu gün də həmin proses davam etdirilir.

Partiya sədri ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsindən də söhbət açıb. Bildirib ki, Azərbaycan dost Pakistandan, Belarusdan, Ukraynadan, qardaş Türkiyədən, İsraildən, Rusiyadan və başqa ölkələrdən ən müasir silahlar alaraq daim öz hərbi arsenalını zənginləşdirir: "Hazırda Silahlı Qüvvələrimiz müasir zirehli texnika ilə, artilleriya və aviasiya ilə komplektləşdirilir. Raketdən müdafiə sistemləri, təyyarələr və döyüş helikopterləri alınaraq səmamızın təhlükəsizliyi möhkəm qorunur, bundan başqa, yaxın və uzaqmənzilli böyük dağıdıcı gücə malik olan raketlərimiz Ermənistanı vahimə içərisində saxlayır".

K.Seyidov Azərbaycanın XXI əsrdə Zəfər paradı keçirən ilk ölkə olduğunu bildirib: "Bu, ölkəmizin dünya miqyasındakı reytinqini daha da yüksəldib. Zəfər paradı ölkəmizin gücünü, rəşadətli ordumuzun qüdrətini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. "Dəmir yumruq" əməliyyatı adı ilə qalib sərkərdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız şanlı Qələbə xalqımızın qələbə əzminin də əyani təsdiqidir".

# Müdafiə naziri Novruz bayramı ərəfəsində hərbi hospitalı ziyarət edib





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, martın 19-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Novruz bayramı münasibətilə Müdafiə Nazirliyinin Baş Klinik Hospitalını ziyarət edib.*

Ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad edilib.

General-polkovnik Zakir Həsənov hospitalda müalicə olunan bir qrup hərbi qulluqçu ilə görüşərək onların səhhəti ilə maraqlanıb, tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzu edib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini hərbi qulluqçulara və tibb personalına çatdırıb, onlara bayram sovqatları təqdim edib.

Nazir daha sonra hərbi hospitalın əsaslı təmir olunan qərargah binasına baxış keçirib, yaradılan şəraitlə tanış olub.

Məruzə edilib ki, müasir avadanlıqlarla təchiz olunan qərargah binasında xidməti fəaliyyətin təşkili üçün hər cür şərait yaradılıb. Bütün otaqlar zəruri mebel avadanlıqları və inventarla tam təchiz edilib.

Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində aparılan islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi, hərbi tibb sahəsində də əldə olunan uğurlardan danışıb. Tibb işçilərini bayram münasibətilə təbrik edib və xidmətin daha da təkmilləşdirilməsi ilə bağlı aidiyyəti üzrə tapşırıqlar verib.





# Müdafiə naziri xüsusi təyinatlı təhsil müəssisələrində olub






Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, martın 19-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin əsaslı təmir olunan əsgər yeməkxanasına baxış keçirib.

Məruzə olunub ki, iki mərtəbəli geniş yeməkxana binası yüksək keyfiyyətli qida məhsullarının hazırlanması üçün müasir tipli avadanlıqlarla təchiz olunub. Burada mətbəx və təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları vardır. Yeməkxana kompleksində çörək istehsalı sahəsi də fəaliyyət göstərir.

Daha sonra general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Hərbi Akademiyasının tədris korpusuna baxış keçirib, əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub. Qeyd olunub ki, tədris korpusunda hərbi elm və təhsil sisteminin daha yüksək səviyyədə təşkili üçün hər cür şərait mövcuddur.

Xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbərləri, professor və müəllim heyəti qarşısında çıxış edən general-polkovnik Zakir Həsənov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişinə əsasən aparılan struktur islahatlar çərçivəsində Milli Müdafiə Universitetinin yaradılması ilə Türkiyə Silahlı Qüvvələri modelinin Azərbaycan Ordusunda tətbiqi, o cümlədən hərbi elm və təhsil sahəsinin inkişafı uğurla davam etdirilir.

Müasir dövrdə elmi əsaslarla yanaşmanın vacibliyini qeyd edən nazir elm və təhsilin vəhdət şəkildə tətbiqinin ordu quruculuğunda mühüm rol oynadığını, eləcə də aparılan elmi tədqiqat işlərinin praktiki olaraq həyata keçirilməsinin əhəmiyyətini xüsusi vurğulayıb.

Sonda müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi elm və təhsil sisteminin daha yüksək səviyyədə təşkili ilə bağlı müvafiq tapşırıqlar verib, xüsusi təyinatlı təhsil müəssisələrinin heyətini qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib.





# Azərbaycan Respublikası müdafiə nazirinin Novruz bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, çətin, eyni zamanda, şərəfli və müqəddəs xidmətinizdə uğurlar arzulayıram.

Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində dövlət səviyyəsində qeyd olunan və xalqımızın ən əziz bayramı sayılan Novruz təbiətin oyanışından xəbər verir. Qədim zamanlardan müasir günümüzədək milli-mənəvi dəyərlərin qorunduğu Azərbaycanda Novruzun gəlişi tarixin ən sərt dönəmlərində belə özünəməxsus coşqu, sevinc, yüksək əhval-ruhiyyə ilə qeyd edilib.

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu siyasət və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan çoxlu sayda böyük layihələr nəticəsində müstəqil Azərbaycan Respublikasında həmrəylik, xalq-dövlət-ordu birliyi ən yüksək səviyyəyə çatmışdır.

Bu gün iqtisadiyyatımızın fasiləsiz inkişafı təmin olunub, dövlətçilik ənənələri daha da möhkəmlənib. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlər sayəsində nüfuzu daha da artan Azərbaycan dünya dövlətləri sırasında ən layiqli yerlərdən birini tutub.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun əsgər və zabitlərinin 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq və fədakarlıq nümunələri sayəsində 30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımız azad edilərək ərazi bütövlüyümüz təmin olundu. Bu gün rəşadətli Azərbaycan Ordusu azad edilən ərazilərdə öz mövqelərini daha da möhkəmləndirərək həyata keçirilən bərpa-quruculuq işlərinə də layiqli töhfələrini verməkdədir. Hərbi anda sədaqətə, çətin və şərəfli hərbi xidmətdə fədakarlığa görə hər birinizə minnətdarlığımı bildirirəm.

Azərbaycanın suverenliyi, müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçən bütün şəhidlərimizin xatirəsini hər zaman olduğu kimi Novruz bayramı ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik. Eyni zamanda, onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha hər birinizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

Novruz bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

## "Gizir hazırlığı" kursu davam edir

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən "Gizir hazırlığı" kursunun planına uyğun olaraq təlim atış çalışmaları yerinə yetirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, atışdan qabaq kursantların nəzəri biliklərini artırmaq məqsədilə atəş hazırlığı üzrə məşğələlər keçirilib. Silahların taktiki-texniki xüsusiyyətləri, onlardan istifadə qaydaları, eləcə də nişanalma və atəş açmanın digər əsasları öyrədilib, təhlükəsizlik qaydaları çatdırılıb.

Kursantların praktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə səhra şəraitində keçirilən təlim atış çalışmalarında əsas diqqət düzgün nişanalma qaydalarına əməl etməklə hədəflərin vaxtında aşkar edilərək dəqiq atəşlə məhv edilməsinə yönəldilib.

Atış çalışmalarında verilən bütün tapşırıqlar kursantlar tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib.

# Baş Qərargah rəisi Quru Qoşunlarında olub





Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Quru Qoşunlarında olub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Baş Qərargah rəisi əvvəlcə Quru Qoşunlarının Ümumqoşun Təlim Mərkəzinə gəlib, hərbi qulluqçuların taktiki-xüsusi hazırlığının inkişaf etdirilməsi və müasir döyüş üsullarının praktiki tətbiqi məqsədilə real döyüş şəraitinə uyğunlaşdırılmış təlim nöqtələrinə baş çəkib.

"Komando hazırlığı" kursunda iştirak edən kursantların sosial-məişət şəraiti və təlim-tədris prosesi ilə maraqlanan Baş Qərargah rəisinə məruzə olunub ki, dərslər yeni üsullar tətbiq olunmaqla tədris olunur.

General-polkovnik Kərim Vəliyev təlim nöqtələrində kursantların nəzəri və praktiki biliklərinin artırılması üçün keçirilən dərs prosesinin gedişatını izləyib. Tədris prosesini müsbət qiymətləndirən Baş Qərargah rəisi şəxsi heyətin qayğıları ilə maraqlanıb, onları qarşıdan gələn Novruz bayramı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib.

Sonra Quru Qoşunlarının idarə heyəti ilə xidməti müşavirə keçirilib.

Görülən işlərin təhlilini aparan Baş Qərargah rəisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Müşavirədə döyüş hazırlığının və hərbi qulluqçuların peşəkarlıq səviyyələrinin daim yüksək səviyyədə saxlanılması, eləcə də bölmələrin və idarəetmə məntəqələrinin praktiki məşq etdirilməsi ilə bağlı aidiyyəti üzrə vəzifəli şəxslərə konkret tapşırıqlar verilib.



# Hərbi Prokurorluğun nümayəndələri hərbi hissələrdə olublar

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun nümayəndələri Novruz bayramı ərəfəsində işğaldan azad olunan ərazilərdə dislokasiya olunan hərbi hissələrdə olub, hərbi qulluqçularla görüşlər keçiriblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Çıxış edənlər xalqımız və dövlətimiz tərəfindən Novruz bayramına verilən yüksək qiymətdən, yazın gəlişinin bütün ölkəmizdə yüksək əhval-ruhiyyə, coşqu, təntənə ilə qeyd edilməsindən, Novruz ənənələrinin tarixindən, eləcə də qorunaraq gələcək nəsillərə ötürülən bu milli-mənəvi dəyərlərin tərbiyəvi əhəmiyyətindən söhbət açıblar.



Sonda xidmətdə fərqlənən, yüksək nizam-intizamı ilə seçilən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edilib.




# “Böyük qayıdışın şah əsəri - Şuşa!”




Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Azərbaycan Hərb Tarixi Muzeyinin təşkilatçılığı ilə Şuşa şəhərinin 270 illiyinə həsr olunan "Böyük qayıdışın şah əsəri - Şuşa!" adlı tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, ictimaiyyətin nümayəndələri, Art Accent Akademiyasının müəllim və şagird heyəti, kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbiri açıq elan edən Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Şuşanın işğaldan azad edilməsi Azərbaycan Ordusunun şanlı Qələbəsidir" adlı məruzə ilə çıxış edərək bildirdi ki, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar ölkəmizdə 2022-ci il "Şuşa ili" elan olunub. "30 ilə yaxın işğal altında olan Şuşa şəhəri Müzəffər Ali Baş Komandanın sərkərdəliyi, rəşadətli Azərbaycan Ordusunun şücaəti nəticəsində işğaldan azad edilib.

Vətən müharibəsində ordumuzun qazandığı böyük Qələbədə Şuşanın azad edilməsi Azərbaycan hərb tarixinin ən yaddaqalan, şanlı səhifələrindəndir. Qoşunlarımızın bölmələri düşmənin gözləmədiyi istiqamətdən müdafiə mövqelərini yararaq təbii relyefinə görə taktiki cəhətdən alınmaz qala hesab edilən Şuşa şəhərinə istiqamət götürdü, kəşfiyyat və zərbə pualarından yararlanmadan, Azərbaycan zabit və əsgərlərinin yenilməz iradəsi, yüksək döyüş ruhu və igidliyi ilə mədəniyyət beşiyimizi işğaldan azad etməklə, düşmənlə yanaşı, dünyaya da Azərbaycan Ordusunun gücünü, qüdrətini göstərdi..."

Şuşanın strateji əhəmiyyəti haqqında geniş məlumat verən muzey rəisi qeyd etdi ki, Prezident İlham Əliyev Vətən müharibəsinin gedişində Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində Şuşanın işğaldan azad edilməsinin qarşıya hədəf kimi qoyulduğunu açıqlamışdı. "Dövlət başçısı bu barədə deyib: "Mənim mövqeyim hər zaman belə olub ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə, təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur". Şuşanın işğaldan azad edilməsi 44 günlük müharibənin kulminasiya nöqtəsi oldu. Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında yüksək peşəkarlıq, misilsiz qəhrəmanlıq göstərərək, 2020-ci il noyabrın 8-də Şuşanı işğaldan azad etdi, tarixi Zəfərə imza atdı".

Muzey rəisi onu da vurğuladı ki, Şuşa əməliyyatında düşmənin xeyli texnikası, canlı qüvvəsi məhv edildi. "Şuşanın azad edilməsi ilə Ermənistan ordusu darmadağın oldu, heç bir müqavimət gücü qalmadı. Ermənistan Şuşanı itirməklə müharibədə məğlub olduğunu qəbul etdi, kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı.

Şuşa əməliyyatı dünya hərb tarixinə görünməmiş döyüş strategiyası və taktikası ilə düşüb. Artıq dünyanın bir çox ölkəsi, o cümlədən aparıcı hərbi təhsil müəssisələri Azərbaycan Ordusunun apardığı 44 günlük müharibəni, xüsusilə də Şuşa əməliyyatını yaxından öyrənir".

Tədbirdə professor Camal Mustafayev, tarix üzrə fəlsəfə doktoru, dosent Hacı Həsənov və başqaları çıxış edərək qeyd etdilər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci ili məhz "Şuşa ili" elan etməsi çox mütərəqqi bir addımdır. Şuşa Azərbaycanın qədim şəhəri, mədəniyyət paytaxtıdır. Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edildi və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olundu. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirə salınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır.

Tədbirdə Şuşaya həsr olunmuş sənədli film və Art Accent Akademiyasının azyaşlı tələbələrinin rəsm əsərlərindən ibarət sərgisi nümayiş olundu.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin və Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin orkestrinin solistlərinin ifasında hərbi vətənpərvərlik mahnıları ifa olundu.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Peşəkarlıq və əzmkarlıq uğurlara yol açır

Çöl məşğələsi keçən istehkamçıların hərəkətlərini yaxından izlədikcə bir daha inanırsan ki, döyüşlər zamanı bu ixtisas sahiblərinin üzərinə olduqca məsuliyyətli və zəruri vəzifələr düşür. Qarşıya qoyulan bu vəzifələri icra etmək üçün zabit və əsgərlərimiz daim nəzəri və əməli məşğələlər keçir, bacarıq və peşəkarlıqlarını artırırlar ki, komandirin verdiyi əmr və tapşırıqları bacarıqla, qüsura yol vermədən yerinə yetirsinlər. Daim uğur qazansınlar.

Hərbçilər arasında istehkamçılar haqqında məşhur bir deyim var: "İstehkamçılar yalnız bir dəfə səhv edirlər". Barələrində deyilən bu sözlər onları qorxutmur. Çünki onlar ixtisaslarını sevirlər, ona ürəkdən bağlıdırlar. İstehkamçılar təcrübə və peşəkarlıqlarını həm nəzəri, həm də əməli məşğələlərdə artırırlar. Dərslərin daha da səmərəli keçirilməsi üçün komandanlıq həm tədris otaqlarında, həm də səhra şəraitində geniş imkanlar yaradıb. Bunun nəticəsidir ki, şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. İstehkamçılar bacarıqlı və peşəkar olduqlarını Vətən müharibəsində bir daha göstərdilər. Onlar İkinci Qarabağ müharibəsində torpaqlarımızın azadlığı naminə qarşılarında dayanan vəzifələrin öhdəsindən bacarıqla gəldilər. Ordu hissələrinin düşmən üzərinə hücuma keçmələri üçün təhlükəsizlik dəhlizləri açdılar, sədləri yardılar, düşmənin maneələrini dəf etmək döyüşçülərimizə yardımçı oldular. Zabit və əsgərlərimiz isə bu sahələrdən bacarıqla keçərək əks-hücum əməliyyatlarını zəfərlə başa çatdırdılar. Bir sözlə, istehkamçılar döyüşlər zamanı üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldilər, böyük qəhrəmanlıqlar göstərdilər.

Vətən müharibəsində qalib gəlmiş istehkamçılar əldə etdikləri uğurlara arxayınlaşmadan yenə də təlim keçir, bacarıq və səriştələrini artırırlar. "N" hərbi hissəsində istehkamçıların təlim-məşqlərini yaxından izləmək imkanı qazanırıq.

İstehkamçılara təlim keçən leytenant Adəm Novruzlu dərsin mövzusunu şəxsi heyətə izah edir, verilən tapşırıqları yerinə yetirərkən tələb olunan zəruri hərəkətlər haqqında onlara ətraflı danışır. Gənc zabit məşğələnin mövzusunu ətraflı izah etdikdən sonra əsgərlərdən birini sıranın qarşısına çağırır və ona bir az əvvəl göstərdiyi hərəkətləri təkrar etmək tapşırığını verir. Əyani vəsaitlərdən səmərəli istifadə edən əsgər komandirin tapşırığını bacarıqla yerinə yetirir. Məşğələyə qatılan digər əsgərlər növbə ilə irəli çıxaraq mənimsədikləri vərdişləri təkrar-təkrar göstərirlər. Məşğələ davam etdikcə şəxsi heyətin necə də bacarıqlı və peşəkar olduğunu görürük. Bu isə gələcək uğur və zəfərlərdən xəbər verir.

Məşğələdə fasilə elan olunanda istehkamçılarla görüşüb söhbət edirik, onlarla yaxından tanış oluruq. Leytenant Adəm Novruzlu deyir ki, əsgərlərimizin hazırlığı, peşəkarlığı yüksək səviyyədədir. "Buna görə də hərbi hissənin şəxsi heyəti Vətən müharibəsində qarşıya qoyulan bütün döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldi, zabit və əsgərlərimiz böyük igidlik göstərdilər. Qoşunlarımızın təhlükəsiz şəkildə irəliləməsi üçün strateji nöqtələrdən dəhliz açıldı. Döyüşçülərimiz bu təhlükəsiz yerlərdən keçərək işğalçıların üzərinə hücum edib, bir-birindən uğurlu döyüş əməliyyatlarının iştirakçısı oldular. Torpaqlarımızın azadlığı naminə hamımız erməni işğalçılarına qarşı cəsarətlə vuruşduq. İkinci Qarabağ müharibəsində hər kəs üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldi. Buna görə də biz Vətən müharibəsində illərdən bəri yurdumuzu işğalda saxlayan düşmənə sarsıdıcı zərbələr endirərək, torpaqlarımızı azad etdik. Qələbələrimizin davamlı olması üçün komandanlığın təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq dərs və məşğələlər keçir, əsgərlərimizin bilik və təcrübələrini daha da artırırıq.



Bugünkü məşğələnin mövzusu "Tank əleyhinə minanın torpaq səthinə qurulması"dır. Bir qayda olaraq, biz məşğələlərin mövzularını əsgərlərimizə əhatəli şəkildə izah edirik. Onların vərdiş və bilikləri dərindən mənimsəmələri üçün əyani vəsaitlərdən də bacarıqla istifadə olunur. Məşğələlər döyüş şəraitinə uyğun keçirildiyindən şəxsi heyət həvəslə iştirak edir. Məqsədimiz odur ki, əsgərlərimizin bilik və bacarıqlarını daim yüksək səviyyədə saxlayaq ki, döyüşlər zamanı tapşırıqların öhdəsindən bacarıqla gəlsinlər”.

- Hərbi hissəmizin şəxsi heyəti Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıq göstərdi. Zabit və əsgərlərimizin erməni qəsbkarları üzərində qələbə qazanmasından qürur duyuruq, - deyə əsgər Elvin Ələkbərov söhbətimizə qoşuldu. - Yaxşı bilirik ki, qələbələrin əldə olunmasında döyüş hazırlığının yüksək olması böyük əhəmiyyət daşıyır. Ona görə də dərs və məşğələlərdə fəal iştirak edərək biliklərimizi daim təkmilləşdiririk. Çalışırıq ki, sələflərimizin zəfər dolu döyüş yollarını yeni-yeni uğurlarımızla davam etdirək.

Şəxsi heyətin məşğələsini yaxından izləyən baş leytenant Fərahim Baratoğlu bizimlə söhbətində dedi ki, zabit və əsgərlərimizin təkcə döyüş hazırlığı deyil, mənəvi-psixoloji hazırlığı da yüksək səviyyədədir. “Çünki müntəzəm olaraq ideoloji dərslər keçirilir, mövzular geniş şəkildə onlara izah olunur. Həm döyüş hazırlığı, həm də mənəvi-psixoloji hazırlığı yüksək olan əsgərlərimiz tapşırıqları peşəkarlıq və əzmkarlıqla yerinə yetirir, onların öhdəsindən bacarıqla gəlirlər”.

Əsgərlərdən Fuad İsgəndərov, Habil Əsgərov, İlqar Əliyev, Danil Volodin və başqaları ilə də söhbət etdik. Əmin olduq ki, təlimlərdə mənimsədikləri bilik və vərdişlər gələcək xidmətlərində onlara böyük uğurlar qazandıracaq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# “N” hərbi hissəsində Novruz şənliyi keçirilib



“N” hərbi hissəsində Novruz şənliyi təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Novruz tədbirində Sabirabad rayon İcra Hakimiyyəti başçısının birinci müavini Həsən Həsənov, Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə, Sabirabad rayon Gənclər və İdman İdarəsinin rəisi Nadir Quliyev, AVMVİB Sabirabad rayon şöbəsinin sədri Faiq Hüseynov və Təhsil Nazirliyinin Azad Həmkarlar İttifaqının Sabirabad rayon Komitəsinin sədri Seyidhüseyn Hüseynov, hərbi hissənin şəxsi heyəti, valideynlər iştirak ediblər.

Əvvəlcə Vətən uğrunda canlarını qəhrəmancasına fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər bayram münasibətilə hərbi hissənin şəxsi heyətini təbrik edib, onlara çətin və şərəfli xidmətdə - Vətənin müdafiəsində uğurlar arzulayıblar. Bildirilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu öz üzərinə düşən missiyanı layiqincə yerinə yetirərək 44 günlük Vətən müharibəsində Zəfər qazanıb. Əsgərlər və zabitlər şərəfli peşə sahibi olduğunu bir daha sübut ediblər. Diqqətə çatdırılıb ki, torpaqlarımız şəhidlərin qanı bahasına azadlığa qovuşub. Bu gün Vətən keşiyində dayanan əsgərlər və zabitlər onlara əmanət olan torpaqları göz bəbəyi kimi qoruyurlar.



Daha sonra hərbçilərə bayram sovqatı təqdim olunub.

Tədbir Sabirabad rayon Mədəniyyət Mərkəzinin təşkil etdiyi rəngarəng konsert proqramı ilə davam edib.

# Türkiyəli məktəblilərin məktubları Azərbaycan əsgərlərinə təqdim edilib

Bu günlərdə bir qrup türkiyəli məktəblinin Azərbaycan əsgərlərinə yazdığı sevgi və sayğı dolu məktubları ordumuzun hərbi qulluqçularına təqdim olunub və onlar da balaca şagirdlərin məktublarına cavablar göndəriblər.




30 ilə yaxın Qarabağın ermənilərin işğalı altında qalması hər bir azərbaycanlının qanayan yarası, nisgil yeri olmuşdu. Ali Baş Komandan İlham Əliyevin sülh çağırışı cavabsız qalır, düşmən tərəfindən mövqelərimiz atəşə tutulurdu. Azərbaycan xalqı isə heç vaxt bu işğala göz yummayacağını hər zaman bəyan edirdi. Nəticədə rəşadətli ordumuzun səyi nəticəsində torpaqlarımız işğal damğasından azad edildi. Qazanılan bu qələbə 44 günə sığdı. İmkansız görünəni Azərbaycan əsgəri mümkün etdi.

Yalnız 44 gün boyunca deyil, həmişə olduğu kimi müharibənin əvvəlindən indiki vaxta qədər türk qardaşlarımız yanımızdadır. Vətən müharibəsi zamanı Türkiyə Cümhuriyyətinin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın səsləndirdiyi nitqlər hər bir döyüşçü üçün əvəzolunmaz motivasiya və ruh yüksəkliyi demək idi. "Cəbhədə uğurla irəliləyən Azərbaycan Ordusu çox yeri işğaldan qurtardı. Qarabağ işğaldan azad edilənə qədər bu savaş davam edəcək. Biz dost və qardaş Azərbaycanın yanındayıq, hər zaman da yanında olacağıq", - sözlərini deyən Rəcəb Tayyib Ərdoğan hər bir əsgərimizə mənəvi güc verdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində qələbəyə həsr olunmuş paradda Türkiyə Dövlətinə bu sözlərlə cavab verdi: "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk".

Bu müharibə zamanı Türkiyənin yalnız dövlət başçısı deyil, kiçikdən-böyüyə hər bir vətəndaşı kömək etməyə və mənəvi dəstək olmağa çalışdı. Ermənistan silahlı qüvvələrinin gecə saatlarında Gəncəni və onun dinc əhalisini raket atəşinə məruz qoyması xəbərini dünyaya çatdıranlardan biri də jurnalist Fülya Öztürk idi. Türkiyəli jurnalistlər 44 gün boyunca Azərbaycanda mətbuat mənsubu olaraq aktiv fəaliyyət göstərdi, dərdimizə şərik oldu, Azərbaycan Ordusunun uğurlarına sevindi, qələbə xəbərini Azərbaycandan Türkiyəyə və dünyaya müjdələdi.

Qardaş və dost Azərbaycana mənəvi dəstək kampaniyasında türkiyəli məktəblilər daim fəallıq nümayiş etdirir, cəbhədən gələn hər bir xəbərə diqqətlə yanaşır, şəhidlərimizə kədərlənir, uğurlarımıza sevinib qələbələrimizlə qürur duyurdular. Onlar ordumuza, Azərbaycan əsgərinə olan dəstəklərini bildirmək üçün məktublar yazır, əl işi hədiyyələrini və video formatda olan təbriklərini qalib əsgərlərimizə göndərirdilər. Bu məktublar balaca əllərlə yazılsa da, türk dünyasına, elinə və türk yurduna sevgi ilə alışıb-yanan böyük ürəklərdən xəbər verirdi.

Belə dəstək aksiyasına qoşulanlardan biri də İstanbul şəhərinin, Sultanqazi rayonunun, İsmətpaşa məhəlləsində yerləşən Şəhit Furkan Doğan İmam Hatip Ortaokulunun şagirdləridir. Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə erməni işğalından azad edilmiş Laçın, Kəlbəcər və Şuşa rayonlarında xidmət edən hissələrdə tədbirlər keçirilmişdir. Tədbirlər zamanı türkiyəli şagirdlərin yazdıqları məktublar Vətən torpaqlarını göz bəbəyi kimi qoruyan Azərbaycan Ordusunun hərbi qulluqçularına çatdırılmışdır. "Əsgərə məktub" layihəsi çərçivəsində baş tutan tədbirdə qardaş Türkiyədən bir qrup məktəblinin göndərdiyi məktubları oxuyan əsgərlərimiz tərəfindən şagirdlərə minnətdarlıq dolu 46 cavab məktubu ünvanlanmışdır. Tədbirdə, həmçinin məktəblilərin məktublar yazmasına və Azərbaycan Ordusunun hərbi qulluqçularına çatdırılmasına yardımçı olan Şəhit Furkan Doğan İmam Hatip Ortaokulu məktəbinin İngilis dili müəllimi Muhammet Buğrahan Kılıca, eləcə də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyədəki Hərbi Attaşelik Aparatının əməkdaşlarının ünvanına da təşəkkürlər ifadə edilmişdir.

Əsgərlərimizin yazdığı cavab məktublarının bir neçəsinin qısa məzmununu oxucularımızla bölüşürük.

Qalib Azərbaycan Ordusunun əsgəri Adil Qədimovdan orta məktəb şagirdi Muhammed Akifə cavab məktubu.

"Vətən keşiyində dayanan məğrur əsgər olaraq Muhammed Akifə təşəkkürümü bildirirəm. Bizləri nəzərlərində saxladıqlarına görə minnətdaram. Sizləri azad edilmiş Qarabağ torpaqlarında görmək istərdik. Diləyim dövlətlərimizin qardaşlığının əbədi olmasıdır. Bizlərə yazdığınız hər bir məktub üçün sizə təşəkkür edirik".

"Salam olsun Türk qardaşlarımıza. Məktubunuzu aldım və oxudum. Bunun üçün sizlərə təşəkkür edirəm. Xoş diləkləriniz, arzularınız bizi daha da ruhlandırdı. Biz qardaş ölkəyik, hər zaman bir-birimizə dəstəyik", - əsgər Nəriman Hüseynovdan orta məktəb şagirdi Esma Cemilə cavab məktubu.

Əsgər İsmayıl Zeynalovdan türkiyəli orta məktəb şagirdi Ahmet Emir Özdemirə.

"Ahmet və bütün türk qardaşlarımıza yanımızda olduqları üçün sonsuz minnətdaram. Biz də hər zaman sizin yanınızdayıq və hər zaman da olacağıq. Bu gün bir əsgər kimi Vətənə xidmət etdiyim üçün fəxr edir, qürur duyuram. Siz də gələcəyin əsgərləri olaraq Vətəninizin hər qarışını göz bəbəyi kimi sevin. Tanrı Türkü qorusun. Yaşasın Azərbaycan, yaşasın Türkiyə! Qarabağ Azərbaycandır!".



**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

**Mövzu:** Azərbaycan xalq eposlarında milli qəhrəmanlıq nümunələri (“Kitabi-Dədə Qorqud” və “Koroğlu” dastanları əsasında)

**Suallar:**
**1. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir.**
**2. Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır.**

## “Kitabi-Dədə Qorqud” Azərbaycan xalqının milli-qəhrəmanlıq abidəsidir

Azərbaycan mədəniyyətinin ulu qaynağı olan "Kitabi-Dədə Qorqud" təkcə öz yarandığı çağda deyil, eyni zamanda, müasir dövrümüzdə də milli mənəviyyatımızın, ədəbiyyat və incəsənətimizin ideya bünövrəsi olaraq qalır. Azərbaycan tarixinin bütün milli-mənəvi dəyərlərini özündə cəmləşdirən bu ulu abidə elə bir enerji mənbəyidir ki, çağdaş milli mənəviyyat və mədəniyyət tariximizi onsuz təsəvvür etmək mümkün deyildir. "Kitabi-Dədə Qorqud"un milli tariximizin dünəni və bugündəki rolunu müdrikcəsinə "Milli varlığımızın mötəbər qaynağı" kimi səciyyələndirən ulu öndər Heydər Əliyevin söylədiyi kimi: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim milli sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər də çox sevəcəkdir".

Qədim oğuz türklərinin məişətini, etik-estetik düşüncələrini əks etdirən qəhrəmanlıq eposu bu günümüzə şifahi və yazılı şəkildə gəlib çatmışdır. Azərbaycan qəhrəmanlıq eposunun böyük abidələrindən olan, Azərbaycan ədəbiyyatı tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış ilk ən böyük ədəbi abidəsi "Kitabi-Dədə Qorqud"dur. "Kitabi-Dədə Qorqud" dastanları ilk dəfə elmə məlum olmayan şəxs tərəfindən 1052-ci ildə qələmə alınmışdır. Dastan təxminən beş əsr şifahi təzahür dövrü yaşamış, bundan sonra XI əsrdə yazıya alınmışdır. Dastanda bəhs edilən hadisələrin ərəb işğalından əvvəlki (V-VII əsrlər), müəyyən dövrün isə ərəb işğalı (VII-IX əsrlər) ərəfəsinin, bəzi boyların ondan da xeyli əvvəl (V əsr) olmaları ehtimal edilir. Bu gün elmə məlum olan "Kitabi-Dədə Qorqud" əlyazmalarının Drezden, Vatikan və Berlin kitabxanalarında saxlanılan nüsxələri məlumdur. Həmin əlyazmalarda oğuz bəylərinin bahadırlıq və cəngavərlik rəşadətlərini düzüb qoşan və milli yaddaşa verən Dədə Qorqudun Məhəmməd peyğəmbərlə (s.a.v.) bir dövrdə yaşadığı göstərilir.

"Kitabi-Dədə Qorqud" dastanında türk etnik qrupuna daxil olan oğuzların qəbilə və tayfa münasibətləri dövrünün hadisələri, oğuz tayfalarının dövlətçilik və idarəçilik ənənələri, Vətən, torpaq uğrundakı vuruşları, sivil mədəniyyətə doğru tarixi inkişafı əks etdirilir.

Dastanda təsvir olunan hadisələr xanlar xanı Bayandır xanın başçılıq etdiyi, 24 sancağı (el, vilayət) birləşdirən Oğuz dövlətində cərəyan edir. Vahid tayfa dövləti olan Oğuz birliyində yaranmış daxili çarpışmalardan, tayfalararası ziddiyyətlərdən yaxın ərazilərdəki düşmən tayfalar istifadə etməyə çalışırdılar. Mərkəzi hakimiyyətə tabe olan sancaqların vahid dövlətçilik ənənələri yox idi. Bununla belə, Oğuz dövlətçiliyinin özünəməxsus idarəçilik qaydalarını, dövlətçilik modelini öyrənmək bu günümüz üçün də çox böyük əhəmiyyətə malikdir.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanlarının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. "Oğuz tayfaları dilindən Dədəm Qorqud kitabı" adlanan Drezden nüsxəsi bir müqəddimə və 12 boydan ("Dirsə xan oğlu Buğacın boyu", "Salur Qazanın evinin yağmalandığı boy", "Bayburanın oğlu Bamsı Beyrək boyu", "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy", "Duxa Qoca oğlu Dəli Domrulun boyu", "Qanlı Qoca oğlu Qanturalı boyu", "Qazılıq Qoca oğlu Yeynəyin boyu", "Basat Təpəgözü öldürdüyü boy", "Bəkil oğlu Əmranın boyu", "Salur Qazan dustaq olub oğlu Uruz çıxardığı boy", "İç Oğuza Dış Oğuz asi olub Beyrək öldüyü boy"), Vatikan nüsxəsi isə eyni müqəddimə və 6 boydan ibarətdir. Bu isə onu göstərir ki, hər iki nüsxə daha qədim bir nüsxədən köçürülmüşdür. "Kitabi-Dədə Qorqud"un bir sıra boyları 1815-ci ildə alman dilində, 1894-1904-cü illərdə rus dilində, 1916-cı ildə tam şəkildə Türkiyədə, 1939-cu ildə Bakıda, 1952-ci ildə İtaliyada, 1962-ci ildə isə Moskvada çap edilmişdir. Sonralar "Kitabi-Dədə Qorqud" ingilis, alman, fars dillərinə tərcümə edilərək İngiltərədə, ABŞ-da, İsveçrədə və İranda çapdan çıxmışdır.

Azərbaycan xalq bədii təfəkkürünün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarında xalq dilinin incəliklərindən, atalar sözlərindən, məsəllərindən məharətlə istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" Azərbaycan dilinin tarixini öyrənmək baxımından zəngin mənbədir.

Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Göyçə gölü, Gəncə, Dərəşam, Əlincə, Qaradağ, Qaraçuq dağı və s. yerlərdə cərəyan edir. "Kitabi-Dədə Qorqud"da Dədə Qorqud bu dastanların yaradıcısı, həm də iştirakçısı kimi təqdim edilir. Bayat elindən çıxmış bu bilicinin oğuzun müşkül məsələlərini həll edərək gələcəkdən xəbər verdiyi göstərilir. Azərbaycanda Dədə Qorqudun bütün əşyalara ad verməsi barədə rəvayət mövcuddur. "Kitabi-Dədə Qorqud" boylarında da Dədə Qorqud şücaət göstərən igidlərə ad qoyur, çətin zamanlarda xalqın köməyinə gəlir, müdrik məsləhətləri ilə onlara yol göstərir.

"Kitabi-Dədə Qorqud"un qəhrəmanlıq ruhu Vətən məhəbbəti ilə ayrılmaz vəhdətdədir. Oğuz bəyləri doğma yurdlarını qorumaq naminə hər cür fədakarlığa hazır igidlərdir. Oğuz igidləri vətən, xalq, el yolunda öz canlarını düşünmədən fəda edən, öz şəxsi mənafeyini cəmiyyətin mənafeyinə hər an qurban verməyə hazır qəhrəmanlardır. Dastanlarda, eyni zamanda xəyanət, həsəd, qorxaqlıq, fərarilik və s. kimi mənfi sifətlər kəskin tənqid olunur.

Eposda oğuz bəyləri ilə mübarizə aparan düşmən qəbilələri də təsvir edilir. Dastanlarda oğuzların düşmənə hücumları yalnız təcavüzkarlardan intiqam almaq məqsədi daşıyır. Qazan xan vuruş meydanında "qaçanı qovmur", "aman diləyəni öldürmür".

"Kitabi-Dədə Qorqud" eposunun qəhrəmanlıq ruhu qadın obrazlarında və onların davranışlarında da aydın görünür. Dastanda təsvir edilən mərd, əyilməz qadınlardan Qazan xanın qadını Burla xatun igidlikdə ərindən geri qalmır, döyüş meydanında hünər göstərir. Başqa qadın obrazları da (Banuçiçək, Selcan xatun və b.) namuslu, tədbirli, təmkinli, ağıllı və dözümlüdürlər.

"Kitabi-Dədə Qorqud" dastanlarının Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında mühüm rolunu nəzərə alan ümummilli lider Heydər Əliyev dastanların dünya miqyasında təbliği, əks etdirdiyi vətənpərvərlik ideyalarının genişləndirilməsi üçün "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyi haqqında 20 aprel 1997-ci ildə fərman imzalamışdır. 2018-ci il noyabrın 28-də "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli mədəniyyət nümunəsi kimi UNESKO-nun Qeyri-Maddi İrs üzrə Reprezentativ siyahısına daxil edilmişdir.

## Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır

Dilimizin, ədəbiyyatımızın, tariximizin, ümumən mədəniyyətimizin ən nadir incilərindən, şah abidəmiz "Kitabi-Dədə Qorqud"dan sonra yaranan ikinci böyük qəhrəmanlıq eposu "Koroğlu"dur. Dastanda xalqın həyatı ilə bağlı tarixi hadisələrdən, onun haqq-ədalət və azadlıq uğrunda apardığı mübarizədən bəhs edilir. XVI əsrin sonu - XVII əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, Səfəvilər dövləti və Osmanlı imperiyası arasında müharibələr Azərbaycan xalqının maddi rifahının ağırlaşmasına və xalq kütlələrinin narazılıqlarına səbəb olurdu. XVI əsrin sonunda Şeyx Cəlalın (Cəlalilər hərəkatı 1518-1519) başçılığı ilə Anadoluda vüsət alan kəndli hərəkatı XVII əsrin əvvəllərində Azərbaycana da yayıldı. Müxtəlif tayfalar içərisindən çıxmış Cəlali dəstə başçılarından ən məşhuru Azərbaycan türkü Koroğlu idi. Rəvayətə görə, Koroğlunun əsl adı Rövşən olub. Həsən xan tərəfindən atası Alı kişinin gözlərinin çıxarılması Rövşəndə zülmə və haqsızlığa qarşı dərin nifrət oyadır. O, haqsızlığa, ədalətsizliyə son qoymaq, məzlumların intiqamını almaq üçün qılınca sarılıb dağlara, Çənlibel (Gədəbəy rayonun Qalakənd ərazisi) qalasına çəkilir. Ağa, bəy, xan zülmündən cana doymuş, xoşbəxt həyat arzusu ilə yaşayan yoxsul gənclərin üz tutduğu Çənlibel azadlığın hökm sürdüyü yurda, Rövşən isə Koroğluya çevrilir.

Şifahi xalq ədəbiyyatında Koroğlunun adı ilə bağlı hadisələr əfsanələşdirilərək öz əksini "Koroğlu dastanı"nda tapmışdır. Dastanda Naxçıvan ərazisi, Salmas, Xoy Koroğlunun ən çox fəaliyyət göstərdiyi yerlərdəndir. Dastanın bir çox variantlarında Koroğlunun iqamətgahı olan Çənlibel qalasının Naxçıvanda və Makuda yerləşdiyi göstərilir. Koroğlu mərdliyi, ədalətli olmasıyla və igidliyi ilə xalq kütlələrinin hədsiz məhəbbətini qazanmışdı. Koroğlunun başına yığışan, ətrafında sıx birləşən dəlilər - silah yoldaşları üçün ümumi olan cəhətlər az deyildir; mərdlik, qorxmazlıq, haqqın, ədalətin tərəfində durmaq, dostluqda sədaqətli olmaq, düşmənə nifrət və s. onları birləşdirən cəhətlərdəndir. Bu igidləri bir-birindən fərqləndirən xüsusiyyətlər də çoxdur. Dəli Həsən təmkinli, tədbirli olması ilə seçilir. Eyvaz səmimiliyi ilə dəlilərin sevimlisi olur. Bəlli Əhməd təvazökarlığı, Dəmirçioğlu isə səbirli və dözümlülüyü ilə diqqəti cəlb edir.

Tədqiqatçı alimlər tərəfindən Azərbaycan və Gürcüstan fondlarında saxlanılan naməlum müəlliflərin əlyazmalarında Koroğlunun ayrı-ayrı şeir və qoşmaları aşkar edilmişdir. Koroğlunun silahdaşlarından ayrı-ayrı dəstə başçıları - Dəli Həsən, Giziroğlu Mustafa bəy, Kosa Səfər, Tanrıtanımaz, Abaza paşa, habelə dastandakı mənfi personajların bir çoxu tarixdə yaşamış şəxslər hesab olunur. Bütün bunlar qəhrəmanın cəsarətini, xalq müdrikliyini, ədaləti özündə birləşdirən, nəğməkar, aşıq sənətinin bilicisi Koroğlunun real tarixi şəxsiyyət olduğunu deməyə əsas verir.

Azərbaycanda "Koroğlu" dastanının ilk nəşri 1913-cü ilə təsadüf edir. Bundan başqa dastanın 1927, 1929, 1941, 1949, 1956, 1975, 1983 və 1997-ci il nəşrləri də mövcuddur.

Azərbaycanın torpaqlarına olduğu kimi, mədəniyyətinə də iddialı olan ermənilər hətta "Koroğlu"nu da özününküləşdirmək kimi cəfəng xülyalarda olmuşlar. Tarixi bir faktdır ki, ötən əsrin 20-30-cu illərində Azərbaycanda aparılan ekspedisiyalar əsasında 1936-cı ildə eposun 20 qoldan ibarət yeni, daha mükəmməl nəşri çapa hazırlanmışdı. 1936-cı ilin dekabrında müstəntiq E.Qriqoryan tərəfindən həmin əlyazma Ermənistana, "mətndə ermənilərdən oğurlanmış qolları üzə çıxarmaq üçün" rəyə göndərilmişdi. Sonralar həmin qolların bir çoxu ermənilərin düzəlişləri ilə erməni mətbuatında "azərbaycanca və ermənicə çalıb-çağıran erməni aşıqlarından yazıya alınmış nümunələr" kimi nəşr edilmişdir. 1941-ci ildə isə İrəvanda "Koroğlu"nun erməni variantı üzə çıxıb. Nəşrə ön söz yazan erməni tədqiqatçısı X.Samuelyan mətni xeyli təriflədikdən sonra fikrini qısa və lakonik ifadə etmişdir: "...Erməni xalqının "Koroğlu" eposu yoxdur, bu, Azərbaycan aşıqlarının repertuarındakı dastandır". Göründüyü kimi, tarixən türk mədəniyyətini mənimsəyib saxtalaşdırmağın mahir ustadı olan ermənilər "Koroğlu" eposunu özününküləşdirməkdə "düyünə” düşmüşlər. Bu "düyün", əslində, eposun milli mahiyyəti ilə bağlıdır. Çünki hər bir epos onu yaradan xalqın milli həyat, milli düşüncə tərzinin güzgüsüdür, milli şüurunu əks etdirir. Azərbaycan dastanı Azərbaycan xalqının milli şüurunun məhsuludur və onu nə qədər saxtalaşdırmaq istəsən, dastanın hər bir poetik elementi, xüsusilə dastanın ən əlahiddə hadisəsi olan qəhrəman obrazı bütün poetik varlığı ilə Azərbaycan varlığından xəbər verəcəkdir. Bütün bunlar bizə bir daha erməni xislətinin iç üzünü açıb göstərir.

Xalqımızın qəhrəmanlıq ənənələrini əks etdirən xalq ədəbiyyatı nümunələri əsrlərdən keçərək bu gün bizə çatmış və milli-mədəni sərvətimizə çevrilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün sahələrə olduğu kimi, tariximizə, mədəniyyətimizə də diqqət və qayğı göstərmişdir. Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən, latın qrafikası ilə ilk növbədə kütləvi nəşr ediləcək Azərbaycan xalq ədəbiyyatı nümunələri arasında "Kitabi-Dədə Qorqud" eposunun 3 clddə, "Koroğlu" dastanının 2 cilddə çapı nəzərdə tutulmuşdur.

Tariximizi, soykökümüzü, mənşəyimizi, məskənimizi müəyyənləşdirən "Kitabi-Dədə Qorqud" eposu və "Koroğlu" dastanı xalqımızın qəhrəmanlıq salnaməsi kimi dəyərli əsərlər Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyətə malik olmuş, əzəli və əbədi torpaqlarımızın işğaldan azad edilməsində tarixi ədalətin bərpa olunmasında müstəsna rol oynamışdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Məişət*

# Əsgər Vətən əmanətidir



Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların döyüş hazırlığı ilə yanaşı, sosial-məişət şəraiti və qida norması da daim diqqət mərkəzində olan məsələlərdəndir. İşğaldan azad olunan ərazilərdə xidmət edən hərbi qulluqçuların lazımi qida rasionu ilə vaxtlı-vaxtında təmin olunması üçün arzuolunan şərait mövcuddur.

"N" hərbi hissəsinin əsgər yeməkxanasında yaradılan şəraitlə tanış olduq. Yeməkxana növbətçisi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kənan Rzayev əsgərin düzgün qidalanması, gündəlik ərzaq norması ilə bağlı məlumat verdi. "Qida rasionunda milli xörəklər üstünlük təşkil edir. Əsgərlərə immunitetin möhkəmləndirilməsi məqsədilə vitaminlər, fəslə uyğun meyvələr və tərəvəzlər verilir. Səliqə-sahmana, təmizlik və gigiyena qaydalarına ciddi əməl olunur. Mövcud pandemiya qaydalarını nəzərə almaqla, mülki işçilərimiz



bütün məişət işlərini (yeməklərin hazırlanması, təmizlik işləri, səliqə-sahman) görürlər. Əsgərlərimizin üzərinə düşən isə komandirlərinin tapşırıqlarına əməl etmək, hərbi bilik və bacarıqlarını artırmaqdır. Vətənə xidmət edən oğullarımıza xidmət göstərməyi özlərinə müqəddəs vəzifə bilən ana və bacılarımızın əsgərlərimiz üçün bişirdiyi yeməklər olduqca ləzizdir. Aşpazlarımızın hər biri öz işinin peşəkarıdır. Əsgərlərin tələb olunan kalorili qida ilə təmin olunması çox mühüm məsələlərdəndir. Şəxsi heyət üçün hazırlanan yeməklərdə istifadə olunan ərzaqlar bir əsgərin ərzaq payı normasına əsasən bölüşdürülür. Saxlanma şəraiti də ciddi nəzərə alınan mövzulardandır. Müasir avadanlıqlar sayəsində ərzaqlar müvafiq kameralarda lazımi temperaturlarda tələb olunan normada qorunub saxlanılır. Həmçinin şəxsi heyətin əyləşdiyi zal da fəslə uyğun olaraq havalandırma sistemi ilə təchiz edilib. Bir sözlə, hərbi qulluqçuların qidalanmasının düzgün təşkil edilməsi üçün hərbi hissədə bütün lazımi şərait mövcuddur".

Söhbət əsnasında öyrənirəm ki, Kənan 44 günlük Vətən müharibəsinin də iştirakçısıdır və döyüşlər vaxtı göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Cəsur döyüşçü" medalı ilə təltif olunub.

Aşpazlar Afət Bağırova, Gülnar Tağıyeva və Gülbəniz Cabbarova uzun illərdir ki, əsgərlərimizin bir ana kimi qeydinə qalır, onlar üçün müxtəlif təamlar hazırlayırlar. Onların yeməklərini dadlı edən əsas səbəb əsgərlərin hər birinə doğma övladları kimi yanaşmaqlarıdır. "Onları dadlı qida ilə təmin etmək biz aşpazların vəzifə borcudur" deyən xanımlarımız gördükləri işdən qürur duyduqlarını vurğuladılar və burada yaradılan şəraitdən də məmnunluqlarını ifadə etdilər. Müsahiblərimdən Afət Bağırovanın bacısı oğlu hazırda "N" hərbi hissəsində hərbi xidmətdədir, Gülbəniz Cabbarovanın qardaşı oğlu Cəfər Cəfərov isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alır. "Əsgərlərimizi öz övladımız bilir, doğmalarımızdan ayırmırıq, çünki əsgər Vətən əmanətidir, onların hər biri bu gün müqəddəs amala xidmət edir. Hazırladığımız yeməkləri iştahla yeməkləri, üzlərində yaranan sevinc və gülüş bizə əvəzolunmaz könül xoşluğu aşılayır və peşəmizə olan sevgimizi artırır", - aşpazlar dedilər. Onu da qeyd etmək yerinə düşərdi ki, adı çəkilən aşpaz xanımlarımız "Dəmir yumruq" əməliyyatı zamanı da Azərbaycan əsgərini fasiləsiz qida ilə təmin etmək üçün səfərbər olublar. Onlar stasionar şəraitdə mərmi səsləri altında hərbçilərimiz üçün yeməklər bişirərək, əsl hünər göstərib, analıq və vətəndaşlıq borcunu layiqincə yerinə yetiriblər.

Əsgərlər Amin Rəşidov və Şahin Abdullayevlə də söhbətləşdik. Onlar yekdilliklə burada verilən yeməklərdən və bütövlükdə şəxsi heyət üçün hərbi hissədə yaradılan şəraitdən ağızdolusu danışdılar. Əslən Saatlı rayonundan olan Amin gənc yaşlarından idmanla məşğul olduğundan yüksək kalorili qidanın önəmini xüsusi qeyd etdi və qəbul edilən qidanın əsgərin gündəlik fəaliyyətinə də mühüm təsirindən danışdı. Şahin Azərbaycan Universitetinin məzunudur, o da öz növbəsində dadlı yeməklər bişirdikləri üçün aşpazlara hər dəfə minnətdarlığını bildirdiyini vurğuladı və göstərilən bu qayğının qarşılığını öz nümunəvi xidmətləri ilə verdiklərini bildirdi.

Burada olduğum müddətdə bir daha şahidi oldum ki, ordu quruculuğunda aparılan düşünülmüş siyasətin məntiqi nəticəsidir ki, əsgərlərin məişət şəraiti, təminatı ilə bağlı məsələlər hər zaman prioritet hesab olunub və bu gün də əsgərin xidməti şəraitinin yaxşılaşdırılması istiqamətində saysız-hesabsız işlər görülür. Göstərilən yüksək diqqət şəxsi heyətə əlavə stimul verir və onun döyüş əzmini daha da möhkəmləndirir. Bir sözlə, Azərbaycan əsgəri hər şeyin ən yaxşısına layiqdir - çünki o, Qalib Ali Baş Komandanın, Qalib Xalqın, Qalib Ordunun əsgəridir.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# "Canik" M2 QCB 12.7 mm-lık ağır pulemyotu



Türkiyənin ən böyük müdafiə sənayesi şirkətlərindən biri və dünyanın aparıcı yüngül silah istehsalçılarından olan "Samsun Yurt Savunma" (SYS) şirkəti 2012-ci ildən apardığı araşdırma və tədqiqatlar nəticəsində hazırladığı "Canik" markalı yarıavtomatik silahı dizayn və inkişaf etdirərək "milli və yerli zenit silahı" kimi tanınıb. "Canik "M2 QCB 12.7 mm-lik ağır pulemyotu İstanbulda keçirilən 15-ci Beynəlxalq Müdafiə Sənayesi Sərgisində (IDEF-21) ilk dəfə nümayiş etdirib.

Yüngül silah istehsalçılarından olan SYS şirkətinin baş direktoru Utqu Aral "IDEF-21" sərgisində ilk dəfə sərgilədikləri "Canik" markalı yerli və milli zenit silahlarının böyük maraqla qarşılandığını bildirib.

Silah ən qabaqcıl texnologiyalarla yenidən dizayn olunaraq təkmilləşdirilib. "Canik" M2 QCB 12.7 mm-lik ağır pulemyotu döyüş şəraitinin tələblərinə uyğunlaşdırılmış, real döyüş mühitlərində sınaqdan keçirilmiş klassik dizaynlı bir silahdır. Bu yüksək texnologiyalı silahdan müdafiə və xüsusi əməliyyatlarda iştirak edən bütün qruplara hər cür atəş dəstəyi missiyalarında istifadə olunur.



Silahın çəkisi 38.5 kq, uzunluğu 1.665 mm-dir. Dəqiqədə 450-650 atış tempinə malikdir. Atışın məhvetmə məsafəsi 1.830 metr, maksimum atış uzaqlığı 6.800 metrdir.

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## "Fərat qalxanı" hərbi əməliyyatlarının keçirildiyi bölgədə terror aktının qarşısı alınıb



Türkiyə Silahlı Qüvvələri Suriya ərazisində daha 8 nəfər PKK-YPG terrorçusunu zərərsizləşdirib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Məlumata əsasən, terrorçular "Fərat qalxanı" hərbi əməliyyatlarının keçirildiyi bölgədə məhv edilib. Onların bölgədə terror aktı törətməyə hazırlaşdıqları məlum olub.

## ABŞ Ukraynaya hərbi yardım üçün əlavə 800 milyon dollar ayırıb



Amerika Birləşmiş Ştatları (ABŞ) Ukraynaya əlavə 800 milyon dollarlıq hərbi yardım ayırıb.

Bunu ABŞ Prezidenti Cozef Bayden deyib.

Onun sözlərinə görə, təkcə bu həftə ABŞ-ın Ukraynaya yeni təhlükəsizlik yardımının ümumi məbləği 1 milyard dollara çatıb.

Bundan əlavə, ABŞ hakimiyyəti Ukraynaya əlavə silahlar, o cümlədən hava hücumundan müdafiə sistemləri, tank əleyhinə sistemlər, atıcı silahlar və döyüş sursatları ötürmək niyyətindədir.

## Slovakiya parlamenti ölkədə NATO əsgərlərinin sayının artırılmasını təsdiqləyib



Slovakiya parlamenti 2100 nəfərədək NATO əsgərinin iştirakına icazə verən "Gücləndirilmiş NATO qüvvələrinin mövcudluğu" proqramının (eFP) bu ölkədə icrasını təsdiqləyib.

eFP proqramı koalisiya hökumətində təmsil olunan bütün partiyalar tərəfindən dəstəklənib. NATO-nun eFP birləşməsinin tərkibində 600 nəfər Çexiya, 200 nəfər Niderland, 100 nəfər Polşa və Sloveniya, 400 nəfər ABŞ və 700 nəfər Almaniya hərbçisinin yer alması gözlənilir.

Agentliyin məlumatına görə, hərbçilərin sayı Slovakiyanın müdafiəsinin təmin olunmasına xidmət edən hərbi texnika və qurğular, onların istifadə texnologiyasının tələblərinə əsasən müəyyən edilir. Hərbçilər arasında Slovakiyada yerləşdirilməsi nəzərdə tutulan "Patriot" hava hücumundan müdafiə sistemi, eyni zamanda "Sentinel" radar sistemi üzrə ixtisaslaşmış heyətlər də yer alacaq.

Qeyd edək ki, NATO-nun bu proqramı çərçivəsində çoxmillətli hərbi kontingentlər 2014-cü ildə Şərqi Avropa ölkələrində çəkindirici vasitə kimi yaradılıb. Onlar Polşa, Litva, Latviya və Estoniyada yerləşir. Ukraynadakı vəziyyətə reaksiya olaraq alyansa üzv dövlətlər Rumıniya, Bolqarıstan, Macarıstan və Slovakiya da daxil olmaqla NATO-nun bütün şərq cinahı boyunca proqramın genişləndirilməsinə dair razılığa gəliblər.

## İtaliyada hərbi təyyarə qəzaya uğrayıb



İtaliyanın Lekko əyalətinin Monte Leqnone bölgəsində "M346" tipli hərbi təyyarə qəzaya uğrayıb.

Qəzadan əvvəl iki pilot təyyarədən paraşütlə atlaya bilib. Pilotların biri qayalıqlarda aşkar edilib. İkinci pilotun axtarışına üç təyyarə və xilasetmə briqadası cəlb olunub.

Təyyarə Hərbi Hava Qüvvələrinə məxsus olmayıb. O, istehsaldan sonra sınaq uçuşu həyata keçirib.

**AZƏRTAC-ın materialları əsasında**

*İctimai-siyasi hazırlıq*

# Şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir



Döyüşdə şəxsi heyətin uğur əldə etməsinin əsas şərtlərindən biri möhkəm nizam-intizam və mənəvi-psixoloji cəhətdən hazırlıqlı olmasıdır. Bu məqsədlə Müdafiə Nazirliyi rəhbərliyinin diqqət və qayğısı sayəsində hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı daim yüksək səviyyədə saxlanılır. Bunun üçün təsdiq edilmiş plana əsasən hərbi hissələrdə günün nizam qaydasına uyğun olaraq ictimai-siyasi hazırlıq məşğələləri keçirilir.

"N" hərbi hissəsində şəxsi heyət müvafiq standartlara uyğun formalaşdırılan ideoloji otaqda ictimai-siyasi hazırlıq dərsi keçirdi. Otaqda xalqımızın ümummilli lideri Heydər Əliyevin ön xətdə əsgərlərlə görüşünü və Ali Baş Komandanın işğaldan azad edilən torpaqlarımızda xidmət edən döyüşçülərlə görüşünü əks etdirən fotoları və dövlət atributları əks olunub. Bunlar Ali Baş Komandanın daim əsgərin yanında olduğunu nümayiş etdirir.

Zabit günün mövzusunu - "31 Mart - Azərbaycanlıların Soyqırımı Günü" - olduğunu bildirərək dərsə başladı. O bildirdi ki, azərbaycanlıların soyqırımı erməni faşizminin xalqımızın taleyinə həkk etdiyi qanlı salnamə, bütün türk dünyası və bəşəriyyət üçün ibrət dərsidir.

- Azərbaycan xalqına qarşı ermənilər tərəfindən törədilmiş soyqırımı uzun müddət tarixin açılmamış səhifələrindən biri olmuşdur. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və "31 Mart - Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Fərmanda deyilirdi: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

Bu mühüm sənəddə tariximizdə ilk dəfə olaraq, Azərbaycanın XIX əsrdə zorakılıqla parçalandıqdan sonra azərbaycanlılara qarşı törədilmiş, bəşər tarixində görünməyən vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların - soyqırımların rəsmən adı çəkilir, xüsusilə 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə erməni millətçi, şovinist dairələri və onları dəstəkləyən mürtəce qüvvələr tərəfindən bütün Zaqafqaziya miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış düşmənçilik siyasətinin kökləri açılır. "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarix boyu bu ərazilərin yerli sakini olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görən antiazərbaycan qüvvələrinin mənfur fəaliyyətinə siyasi qiymət verilir.

Dərs başa çatdıqdan sonra qrup rəhbəri leytenant Təbriz Əzizov bildirdi ki, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində ictimai-siyasi hazırlıq dərslərinin əhəmiyyəti böyükdür. Keçirilən dərslərlə şəxsi heyətin hərb tarixi biliklərini zənginləşdirir, onlarda ruh yüksəkliyi yaradaraq peşəkar döyüşçü kimi formalaşdırırıq.

Əsgər Hafiz Nəsirov söhbət zamanı bildirdi ki, xain erməni əsgərlərinin xalqımızın övladlarına verdiyi əzab əziyyətlərin qisasını cəsur əsgər yoldaşlarım Müzəffər Ali Baş Komandanın döyüş əmri ilə aldılar. "Düşmənin illərlə işğal etdiyi torpaqlarımızı məğrur oğullarımız cəmi 44 gün ərzində azad etdilər. Bununla bir daha bütün dünyaya sübut olundu ki, Qarabağ Azərbaycandır! Bu gün qalib Azərbaycan Ordusunun sıralarında xidmət etdiyim üçün qürur duyuram".

Əsgər Habil Əsgərov isə bildirdi ki, 2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun istənilən an torpaqlarımızı azad edə biləcək gücdə olduğunun sübutudur. "Yalnız bunu dərk etməyən düşmən 2020-ci il sentyabrın 27-də növbəti genişmiqyaslı təxribatlara əl atdı. Bu səbrimizin son damlası oldu. Əks-hücum əməliyyatına başlayan rəşadətli ordumuz düşmənin belini qırdı. Yüzlərlə canlı qüvvəsini məhv etdi. Hər gün mətin addımlarla irəliləyən ordumuz qısa müddətdə işğalçılığa son qoydu. Gücümüz qarşısında aciz qalan mənfurlar 10 noyabr tarixində bəyanat imzalamağa məcbur oldu. Bununla da torpaqlarımız gerçək sahibinə geri döndü. Haqq-ədalət bərqərar olundu. Əlbəttə, hər bir əsgər kimi, mən də qalib Azərbaycan Ordusunun sıralarında yer aldığım, Vətənim qarşısında övladlıq borcumu şərəflə yerinə yetirdiyim üçün fəxr edirəm".

Əsgərlərlə söhbətləşdikdən sonra xidmətlərində yeni-yeni uğurlara imza atmaqlarını arzu etdik. Leytenant Təbriz Əzizovun rəhbərliyi altında keçirilən məşğələnin gedişatından və əsgərlərin söhbətlərindən əmin olduq ki, onların mənəvi-psixoloji hazırlıqları yüksək səviyyədədir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

# Müxtəlif səbəblərdən baş verən müharibələr

***Dünyada müxtəlif müharibələr, qarşıdurmalar və bunların yaranmasına əsas olan səbəblər mövcuddur. Bəzən isə bunlar qeyri-ciddi səbəblərdən baş verə bilir. Onlardan bəziləri ilə tanış olaq.***

**Xəmir müharibəsi:**
Meksika 1821-ci ildə İspaniyadan ayrılıb müstəqilliyini qazandıqdan sonra daxili xaos yaşamağa başladı. Ölkənin idarə olunma üsulu ilə bağlı mübahisələr çaşqınlığa səbəb oldu. Bu daxili xaos 1828-ci ildə daha da şiddətləndi, Meksikada döyüşlər zamanı bir neçə mağaza qarət olunaraq talan edildi. M.Remontel kimi tanınan xəmir aşpazına məxsus dükan da buraya daxil idi.

**Qombe Şimpanze müharibəsi:**
Qombe müharibəsi şimpanzelər tərəfindən aparılır. Bu müharibə 1974-cü ildə başlayaraq 1978-ci ilə qədər davam edir. Doktor Ceyn Qudoll müharibənin şahidi olsa da, elmi ictimaiyyət onun müşahidələrinə şübhə ilə yanaşırdı. Sonrakı araşdırmalar onun şimpanzelərin müharibə apardığına dair ilkin müşahidəsini təsdiqlədikdə Qudoll haqlı çıxdı.

Qudoll bu dörd illik münaqişənin müharibə müxbiri oldu.

**Miçiqan-Ohayo müharibəsi:**
1835-ci ildə Ohayo ştatı ilə Miçiqan arasında ərazi mübahisəsi baş verdi. Mübahisəli ərazi olan Toledo zolağı kommersiya baxımından qiymətli torpaq sahəsi idi. 31 mart 1835-ci ildə Miçiqan qubernatoru Stivens T.Meyson və Ohayo qubernatoru Robert Lukas öz qoşunlarını Toledoya göndərdilər. Bu zaman prezident Endryu Cekson mübahisəyə müdaxilə etmək üçün uğursuz cəhd etdi. 26 aprel 1835-ci ildə Ohayo mübahisəli Toledo zolağında işləmək üçün tədqiqatçılar göndərdikdə Miçiqan qoşunlarının atəş açmasıyla kiçik atışma baş verdi. Bu hadisə zamanı hər iki tərəfdən itki olmadı.

**Hazırladı:**
**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Gənc boksçumuz Avropa çempionatında ikinci qələbəsini qazanıb



Azərbaycan millisinin üzvü Nəbi İsgəndərov Xorvatiyanın Poreç şəhərində 22 yaşadək boksçular arasında təşkil olunan Avropa çempionatında ikinci görüşünü keçirib.

67 kiloqram çəki dərəcəsində mübarizə aparan N.İsgəndərov Luka Nikabadzenin (Gürcüstan) ardınca Alen Ahmetoviçi (Xorvatiya) də yarışdan kənarlaşdırıb.

Boksçumuz səkkizdəbir final mərhələsi çərçivəsində ev sahibini 5:0 hesabı ilə məğlub edib.

N.İsgəndərov dörddəbir final qarşılaşmasına martın 19-da çıxacaq. Təmsilçimizin rəqibi fransalı Hüqo Qrau olacaq.

## Mədinə Dəmirova gənc gimnastların çoxnövçülük yarışında Azərbaycan çempionu olub




Bədii gimnastika üzrə 27-ci Azərbaycan çempionatında gənclər arasında çoxnövçülük yarışında qalib müəyyənləşib.

2007-2009-cu illər təvəllüdlü gimnastların mübarizəsində Mədinə Dəmirova bütün rəqiblərini qabaqlayaraq ölkə çempionu olub.

Gövhər İbrahimova yarışı gümüş, Məryəm Əliyeva isə bürünc medalla başa vurublar.

İki gün davam edəcək çempionatda paytaxt üzrə "Ocaq Sport", Bakı Gimnastika Məktəbi, Respublika Kompleks İdman Məktəbi, digər şəhər və bölgələr üzrə Xırdalanın "Zirvə" klubu, Sumqayıt, Gəncə və Mingəçevirdən ümumilikdə 40 idmançı birincilik uğrunda yarışır.

Qaliblər həm ayrı-ayrı alətlərdə (top, halqa, gürzlər, lent), həm də çoxnövçülük xalına görə müəyyənləşəcək. Çempionatın ilk günü gənclər və böyüklər arasında çoxnövçülük yarışları, ikinci günü isə alətlər üzrə final mərhələləri baş tutacaq.

Qeyd edək ki, ikiillik fasilədən sonra xüsusi karantin rejimi çərçivəsində yumşalma tədbirləri ilə əlaqədar olaraq tamaşaçılar Milli Gimnastika Arenasında yarışları izləmək imkanı əldə ediblər.

## Asiya regionu üzrə "President Cup" turnirində parataekvondoçularımız üç medal qazanıblar



Tehranda parataekvondoçular arasında keçirilən "President Cup" G-2 kateqoriyalı beynəlxalq turnir yekunlaşıb.

Asiya regionu üzrə təşkil edilən turnirə beş idmançı ilə qatılan Azərbaycan komandası üç medalla dördüncü yerə sahib olub. Baş məşqçi Fərid Tağızadə və böyük məşqçi Yaşar Səfərovun yetirmələrindən Sabir Zeynalov (K-44, 58 kq) və İmaməddin Xəlilov (K-44, 70 kq) gümüş, Əbülfəz Abuzərli isə (K-44, 80 kq) bürünc medal qazanıblar.

Qeyd edək ki, bundan əvvəl böyüklərdən ibarət taekvondo komandamız da turnirdə iki gümüş və üç bürünc medal əldə edərək komanda hesabında dördüncü pillədə qərarlaşıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Abdullayev Emin Şubay oğluna məxsus AD № 0023656 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 345
Nüsxə 4673